**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDITORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№377/7** **13 iyun 2025-ci il**

## Azərbaycan Respublikasının ərazisində auditor fəaliyyəti ilə məşğul olmaq üçün icazələrin qüvvədəolma müddətinin başa çatması ilə əlaqədar keçiriləcək imtahan barədə

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununu, "Azərbaycan Republikasının Auditorlar Palatası haqqında" Əsasnaməni, Azərbaycan Republikası Prezidentinin 2016-cı il 15 mart tarixli 176-VQ saylı Fərmanı ilə təsdiq edilmiş "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununu, habelə Auditorlar Palatası Şurasının 2019-cu il 03 may tarixli 310/6 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditorların ixtisasartırma kurslarının təşkili üzrə yeni qaydalar"ı rəhbər tutaraq və Auditorlar Palatası Şurasının "Azərbaycan Respublikasının ərazisində auditor fəaliyyəti ilə məşğul olmaq üçün lisenziyanın qüvvədə olma müddətinin başa çatması ilə əlaqədar keçiriləcək imtahanlar üçün imtahan haqqlarının məbləği barədə" 2001-ci il 17 may tarixli 75/4 nömrəli qərarına əsasən Auditorlar Palatası Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatası Şurasının 2019-cu il 03 may tarixli 310/6 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditorların ixtisasartırma kurslarının təşkili üzrə yeni qaydalar"ın 9.6-cı bəndinə uyğun olaraq ixtisasartırma kurslarında hər il iştirak edən və bu kursları müvəffəqiyyətlə bitirən, habelə digər tədbirlərdə fəal iştirak etmiş auditorların auditor adı almaq üçün keçiriləcək imtahandan (25 iyul tarixində), imtahan haqqı ödənilməsindən azad olunması və onlara növbəti beş il müddətinə yeni icazənin verilməsi məqsədəuyğun hesab edilsin (I qrup üzrə 1 saylı siyahı əlavə olunur).
2. Auditorlar Palatası Şurasının 2019-cu il 03 may tarixli 310/6 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditorların ixtisasartırma kurslarının təşkili üzrə yeni qaydalar"ın 9.5-ci bəndinə uyğun olaraq ixtisasartırma kurslarında hər il iştirak edən və üç ildən az olmamaq şərtilə bu kursları müvəffəqiyyətlə bitirən auditorların icazələrinin qüvvədə olma müddətinin başa çatması ilə bağlı auditor adı almaq üçün keçiriləcək imtahanda (25 iyul tarixində) müəyyən olunan ödənişi ödəmədən iştirakı məqsədəuyğun hesab edilsin (I qrup üzrə 2 saylı siyahı əlavə olunur).
3. Auditorlar Palatası Şurasının 2019-cu il 03 may tarixli 310/6 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditorların ixtisasartırma kurslarının təşkili üzrə yeni qaydalar"ın 9.4-cü bəndinə uyğun olaraq ixtisasartırma kurslarının nəzərdə tutulan həcmində qismən iştirak edən auditorların icazələrinin qüvvədə olma müddətinin başa çatması ilə bağlı auditor adı almaq üçün keçiriləcək imtahanda (25 iyul tarixində) ümumi qaydada iştirakı məqsədəuyğun hesab edilsin (I qrup üzrə 3 saylı siyahı əlavə olunur).
4. Kadr hazırlığı idarəsinə (E.Hacıyeva) və İmtahan Komissiyasına (C.Həsənov) tapşırılsın ki, bu qərarın icrası ilə əlaqədar müvafiq tədbirlərin vaxtında və yüksək keyfiyyətlə həyata keçirilməsi üçün zəruri işlərin yerinə yetirilməsini təmin etsinlər.

**Şuranın sədri** **Vahid Novruzov**

**Azərbaycan Respublikasının**
**Auditorlar Palatası Şurasının**
**2025-ci il 13 iyun tarixli 377/7**
**nömrəli qərarı ilə təsdiq edilmişdir**

***I qrup üzrə 1 saylı əlavə***

Auditor fəaliyyəti ilə məşğul olmaq üçün icazə verilmiş I qrup auditorların icazələrinin qüvvədə olma müddətinin bitməsi ilə əlaqədar Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən 2025-ci ildə keçiriləcək imtahandan (25 iyul tarixində), imtahan haqqının ödənilməsindən azad edilən və növbəti beş il müddətinə yeni icazə verilən şəxslərin siyahısı.

| **Sıra №-si** | **Auditorların soyadı, adı və atasının adı** | **Auditorların ixtisasartırma kurslarında iştirakı və müsbət nəticələri haqqında qeydlər (imtahanların sayı/müvəffəq nəticə)** | **Qeyd** |
|---|---|---|---|
| 1. | Miriyev Rasət Abasət oğlu | 5/5 | |
| 2. | İsmayılov Səxavət İsmayıl oğlu | 5/5 | |
| 3. | Şərifov Ərşad Vüsal oğlu | 5/4 | |

***Qeyd: Cədvəldə qeyd edilən 5/4 nəticə həmin auditorun ilk dəfə auditor adı almaq üçün imtahan verdiyi ildə auditorların ixtisasartırma kurslarına çağırılmadığı üçün olan qiymətdir.***

**Azərbaycan Respublikasının**
**Auditorlar Palatası Şurasının**
**2025-ci il 13 iyun tarixli 377/7**
**nömrəli qərarı ilə təsdiq edilmişdir**

***I qrup üzrə 2 saylı əlavə***

Auditor fəaliyyəti ilə məşğul olmaq üçün icazə verilmiş I qrup auditorların icazələrinin qüvvədə olma müddətinin bitməsi ilə əlaqədar Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən 2025-ci ildə keçiriləcək imtahanda (25 iyul tarixində) iştirak etmək üçün imtahan haqqının ödənilməsindən azad edilən şəxslərin siyahısı.

| Sıra №-si | Auditorların soyadı, adı və atasının adı | Auditorların ixtisasartırma kurslarında iştirakı və müsbət nəticələri haqqında qeydlər (imtahanların sayı/müvəffəq nəticə) | Qeyd |
|---|---|---|---|
| 1. | Muxtarov Tunar Tahir oğlu | 5/3 | |

**Azərbaycan Respublikasının**
**Auditorlar Palatası Şurasının**
**2025-ci il 13 iyun tarixli 377/7**
**nömrəli qərarı ilə təsdiq edilmişdir**

***I qrup üzrə 3 saylı əlavə***

Auditor fəaliyyəti ilə məşğul olmaq üçün icazə verilmiş I qrup auditorların icazələrinin qüvvədə olma müddətinin bitməsi ilə əlaqədar Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən 2025-ci ildə keçiriləcək imtahanda (25 iyul tarixində) ümumi qaydada iştirak edən şəxslərin siyahısı.

| Sıra №-si | Auditorların soyadı, adı və atasının adı | Auditorların ixtisasartırma kurslarında iştirakı və müsbət nəticələri haqqında qeydlər (imtahanların sayı/müvəffəq nəticə) | Qeyd |
|---|---|---|---|
| 1. | Ağayev Kənan Səxavət oğlu | 5/2 | |
| 2. | Əlizadə İlqar Rasim oğlu | 5/0 | |
| 3. | Əsədov Azər Asəf oğlu | 5/1 | |
| 4. | Hacıyev Cəmin Mikayıl oğlu | 5/0 | |
| 5. | Hacıyev Elxan Sədrəddin oğlu | 5/1 | |
| 6. | Heybətzadə Əhmədağa Fikrət oğlu | 5/0 | |
| 7. | Məhərrəmov Elçin Məhərrəm oğlu | 5/1 | |
| 8. | Osmanlı Elnur Əjdər oğlu | 5/1 | |
| 9. | Süleymanlı Nicat İlham oğlu | 5/1 | |
| 10. | Məmmədov Səbuhi Əmirxan oğlu | 5/1 | |
| 11. | Kərimli Orxan Dadaş oğlu | 5/2 | |